Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Diqqət top qapıdadır..

**10 Dekabr – Ümumdünya Futbol günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Ülkər Cabarova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“ Diqqət top qapıdadır....”** 10 Dekabr – Ümumdünya Futbol günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.C.Ülkər; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. –30s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

İdman dövlətin böyük bir qüvvəsidir və insanın, dövlətin həyatında böyük rol oynayır, belə ki, idman - həyat və sağlamlıqdır. Sağlam insan üçün hər bir şeyi etmək daha rahatdır. Bu vəsaitin hazırlanmasında məqsəd uşaqlarda idmana, müxtəlif idman oyunlarına xüsusi ilə də Futbola qarşı böyük maraq yaratmaqdan ibarətdir. İdman və məşq uşağın inkişafının və böyüməsinin ayrılmaz prosesidi. Hər bir uşağın idmana ehtiyacı var. Fiziki fəaliyyət uşağın inkişafı üçün zəmin yaratdığından və gələcək üçün onu formalaşdıran həyat təcrübəsinə töhfə verdiyindən həyatın ilk mərhələlərində daha vacibdir. Hər bir idman növündə uşaqların təcrübə yolu ilə öyrəndiyi bir sıra üstünlüklər və bacarıqlar vardır. Uşaqlarda müvafiq aerobik fəaliyyətlərin həyata keçirilməsi bütün sahələrdə beyin inkişafını artırdığını, stressi azaltdığını, konsentrasiyanı təşviq etdiyini və özünə inamı artırdığını göstərir. İdmanın uşaqlara akademik səviyyədə fayda verdiyi elmi faktdır. Bu idman növləri içərisində futbol isə bu aspektdə xüsusilə fərqlənir. Futbol uşağın zehni, emosional və sosial tərəflərinə diqqət yetirən bir təməl qurur. Futbolun uşaqlar üçün öyrədə biləcəyi çox şey var: sahiblik, münaqişələrin həlli, emosional cavabların idarə edilməsi, konstruktiv tənqidi qəbul etmək, başqalarına hörmət etmək, motivasiya yaratmaq və s. Bu baxımdan futbol, aktiv həyat tərzini təşviq edir, ünsiyyət bacarıqlarını inkişaf etdirir.

Bu vəsait 10 Dekabr – Ümumdünya Futbol günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmışdır.

## Giriş



Dünyada idmanın ən populyar oyun növlərindən biri olaraq futbol müasir dövrümüzdə xeyli təkmilləşmiş məzmun və taktiki nöqteyi-nəzərindən zənginləşmiş, qəbul edilən dəyişikliklər onun daha sürətli və məntiqli olmasına təkan vermişdir. Hücuma mərkəz xəttindən deyil, cərimə meydançası xəttindən başlanması, müdafiənin hamılıqla təşkili, oyun meydançasının hər bir nöqtəsində top uğrunda mübarizənin qətiyyətlə aparılması, topsuz sürətli oyunla açıq dəhlizlər yaradılması, cilalanmış uzun ötürmələrlə həmkarların əlverişli zərbə mövqeyinə çıxarılması, dürüst ötürmələr sayəsində oyunun bir cinahdan digərinə çevik keçirilməsi və s.bütün bunlar bugünkü futbolu səciyyələndirən xüsusiyyətlərdir. İndi oyunun nəticəsi bir-iki futbolçunun parlaq fərdi qabiliyyətindən daha çox bütövlükdə komandanın məntiqli oyun üslubundan asılı olmağa başlamışdır. Belə bir şəraitdə futbolla peşəkarcasına məşğul olanlara, onun təlim və tədrisi sahəsində çalışanlara tələbkarlıq əhəmiyyətli dərəcədə yüksəlmişdir. Əgər bir kamil futbolçunun yetişdirilməsi üçün xeyli müddət tələb olunursa, onda vahid bir orqanizm kimi oyun nümayiş etdirən səviyyəli komnadanın yaradılmasına nə qədər vaxt sərf olunmasını təsəvvür etmək o qədər də çətin deyil. Bu problemin həllində uşaq futbolunun rolu çox mühümdür.

Milli futbol ənənələrini yaşatmaq üçün yeni istedadların aşkara çıxarılması, yetişdirilməsi, onların fiziki və texniki hazırlığının təmin edilməsi peşakar futbolun bünövrəsi, onun ehtiyat bazası olan uşaq futbolunun ümdə vəzifəsidir.

Yeniyetmələrə futbolun təlimi sahəsində çalışan məşqçi və müəllim heyətinin apardığı iş mütənasib surətdə məsuliyyətlidir. Bu sahədə onlardan elmi yanaşma, istedad bir sıra xüsusiyyətlər tələb olunur.

Məşqçi uşaqlarda fiziki çətinliklərə qarşı immunitet yaratmağı bacarmalı, onların hər məşqdə əvvəldən axıradək var qüvvə ilə çalışmalarına nail olunmalıdır. Gənc futbolçular dərk etməlidir ki, meydançada hər dəfə 90 dəqiqəlik dayanmadan mübarizə aparmaq üçün onlar kifayət qədər dözümlü, fiziki gücə malik olmalıdırlar. Bir sözlə, fiziki hazırlıq onların gündəlik həyat tərzinə çevrilməlidir.

Texniki hazırlıq sahəsində diqqət uşaqların ən sadə texniki fəndlərdən mürəkkəblərinədək tam mənimsəmələri ilə yanaşı onların dəfələrlə təkrarlanması nəticəsində gələcək futbolçularda vərdiş halına keçməsinə yönəlməlidir. Məşqçi uşaqlara oyun zamanı futbol meydançasını "görməyi", həmkarın oyununu dərk etməyi, komandada əlaqəli oyundan kənarda qalmamağı, cəld qərar qəbul etməyi öyrətməlidir. Oynayaraq düşünmək deyil, düşünərək oynamaq prinsipi əsas tutulmalıdır.

Futbol - geniş əhali kütləsinin sağlamlığının möhkəmləndirilməsinin və fiziki inkişafının ən sadə bir vasitəsidir. Futbol oyun olaraq fiziki tərbiyə sistemində əsas və vacib yer tutur. Futbolda fəaliyyətin kollektiv forması onlarda dostluq, qardaşlıq, qarşılıqlı yardım xüsusiyyətlərini tərbiyə etməklə bərabər, başqa lazımi keyfiyyətləri:

məsuliyyat hiss etmək, yoldaşa va rəqibə hörmət etmək, intizamlığını və şəxsi yaradıcılığını və eləcə də sərbəstliyini göstərə bilmək kimi qabiliyyətləri formalaşdırır. Bu isə futbolçularda əsaslı əhəmiyyət daşıyan şəxsi marağın kollektiv maraqlara tabe olmaq kimi vərdişlərini aşılayır. Oyun fəaliyyətində futbolçular mürəkkəb texniki və faktiki vərdişlərə malik olmalı, fiziki keyfiyyətləri inkişaf etdirməli, yorğunluğu və kənar təzyiqləri dəf etməli, xarici mühitin xoşagəlməz şərtlərinə davamlı olmalı, məişət və idman geyiminə ciddi yanaşmalıdır. Bu isə xarakterin formalaşması keyfiyyətlərini cəsurluluğu, qətiyyətliliyi, səbrliliyi, möhkəmliliyi və kişiliyi tərbiyə edir. Futbolla məşğul olanlarda fiziki gözəlliyə, yaradıcı təşəbbüsə və estetik davranışa maraq artır..



## Keçiriləcək tədbirlər

Trio tədris, İncəsənət və İdman Mərkəzinin müxtəlif sinif şagirdləri F.Köçərli adına Respublika Uşaq Kitabxanasına ekskursiya etdilər. Kitabxananın əməkdaşı uşaqları kitabxana ilə tanış etdi, kitabxanada təşkil olunmuş kitab sərgiləri, elektron kitabxana ilə bağlı məlumat verdi. Uşaqlar kitabxananın bütün şöbələrində oldular, kitabların kitabxana qaydası ilə işlənməsi, oxuculara verilməsi işi ilə yaxından tanış oldular. Sonra nağıl otağında Azərbaycan nağıllarını dinlədilər, bir sıra cizgi filmləri izləyib, müasir nağıllarımızı müzakirə etdilər. Oxu zalında kitablarla bağlı maraqlı çarxlı video izlədilər. Balacalar kiçik oxu zalında “Danışan kitablar” la, qeyri-adi formalı – panoramalı, hissiyatlı, səhifələndikcə özü oxuyan, səsli düymələrlə idarə olunan və s. kitablarla tanış oldular. Kitabxanada səmərəli vaxt keçirən uşaqlar, oxucuların rəy və təkliflər kitabına öz fikirlərini qeyd etdilər. Şagirdlərin təqdimatınada Kitab dünyasına səyahət edən uşaqlara kitabxana tərəfindən təsis edilən “Göy Qurşağı” uşaq jurnalı və biri-birindən maraqlı kitablar hədiyyə olundu. Sonda uşaqlar “Futbol günü” ilə əlaqədar hazırlanmış “Sevimli futbolçum” adlı sərgi ilə də tanış oldular. Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında “Futbol günü” ilə əlaqədar olaraq “Futbol sağlamlıqdır”, “Futbolçunun möhtəşəm qolu” başlıqlarları altında müxtəlif sərgilər təşkil oluna bilər. Sərgidən olan şəkiləri sizə təqdim edrik.






İDMAN
SAĞLAMLIQDIR!







Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında 10 dekabr - Ümumdünya futbol günü ilə əlaqədar olaraq “Oxucularla söhbət” keçirilə biilər.

**Metodist:** Futbol oyunu hər biri 45 dəqiqə olan iki hissədən ibarətdir. Hər bir hissə fasiləsiz davam edir, yəni top meydanın kənarında olsa belə, oyun dayanmır. Hissələr arasında fasilə adətən 15 dəqiqə çəkir. Baş hakim oyunun rəsmi xronometristdir və əvəzetmələrə, oyunçu zədələrinə və sayr dayandırılmalara görə itirilən dəqiqələri o, hissənin sonuna əlavə edə bilər. Əlavə vaxtın müddəti referinin səlahiyyətindədir. Yalnız baş hakim oyunu başa çatdıra bilər.

Əlavə vaxt 1891 ildə oynanılan Stok Siti-Aston Villa oyununda baş verən insidentdən sonra futbolda tətbiq edilməyə başlandı. Stok Siti 0:1 uduzan vaxtı, oyunun sonunda onlar penalti zərbəsini qazandılar, amma Aston Villanın qapıçısı topu göyə vurmuşdu, və top meydançanın lazım olan yerinə qayıdanadək, oyun vaxtı bitmişdir, və artıq hakim oyunu dayandırmışdır. Həmçinin əlavə vaxt qaydası ilə birlikdə qəbul edildi ki, hər hansı hissənin sonunda 11 metrəlik cərmə zərbəsi təyin edilərsə, o zərbəni yerinə yetirmədən, oyun bitə bilməz. Liqa yarışlarında oyun heç-heçə də bitə bilər. Əsas vaxtda hesab heç-heçə ilə bitsə, oyuna əlavə iki dənə 15 dəqiqəlik əlavə hissələr oynanıla bilər. Əgər əlavə vaxtada qalib müəyyənləşmədisə, onda bəzi yarışlarda penalti seriyası tətbiq olunur. Penalti zərbələrində vurulan qollar, yekun hesaba əlavə olunmurlar.

1990-cı illərin sonlarında 2000 illərin əvvəlində Futbol Assosiasiyalarının Beynəlxalq Şurası penalti seriyasını istifadə etmədən, qalibi müəyyən etmək üçün eksperimentlər keçirdməyə başladı. Onlar "qızıl" (əlavə

vaxtda ilk qolu vuran komanda, oyunun qalibi olur) və "bürünc" (əlavə vaxtda ilk qolu vuran komanda qalib olmur və əgər hansısa əlavə hissədən sonra komandalardan biri hesabda öndədirsə, onda qalib həmin o, klubdu) topları tətbiq etməyə başladılar. Qızıl qol 1998 və 2002-ci ilin dünya çempionatında istifadə olunmuşdur. Dünya Çempionatında Qızıl qolun həll etdiyi ilk oyun 1998-ci ildə keçirilən Fransa-Paraqvay olmuşdur. Almaniya millisi Qızı top saəsində mötəbər turnirdə ilk qələbə qazanan komanda olmuşdur, onlar Avro 1996-cı ilin finalında Oliver Birhoffun qızıl qolu ilə Çexiya millisinə qalib gəlmişdilər. Bürünc qol Avro 2004-cü ildə tətbiq edilmişdir. Hər iki eksperiment Futbol Assosiasiyalarının Beynəlxalq Şurası tərəfindən ləğv edilmişdir.

https://az.wikipedia.org/wiki/Futbol

**Başla oyun**

Başla oyun- bu element yalnız futbola xasdır. İdmanın oyun növlərinin heç birində topun yerdəyişməsi başla edilmir. Oyunun böyük hissəsinin yerdə getdiyinə baxmayaraq, başla oyun futbolun ayrılmaz tərkib hissasi olaraq qalır, futbolçular öz oyun amplualarından (rollarından) asılı olmayaraq həm hücumda, həm də müdafiə olunarkən havada başla savadlı, məharətlə oynamağı bacarmalıdırlar. Özünəməxsus oyun tərzi olaraq başla oyunun futbolçulara təlimdə ehtiyatlı, məntiqi ardıcıl yanaşma tələb olunur. Yeniyetmə oyunçular öz futbol təhsilinin ilk pillələrindən artıq başla oyun təcrübəsi ilə tanış olub.

## Qapıçının oyunu

Qapıçı komandada yeganə oyunçudur ki, ona bu nadir oyun ampulasına xarakterik olan spesifik fəndləri, fərdi taktiki vərdişləri inkişaf etdirmək və daima işləmək lazımdır. Müasir qapıçının rolu son bir neçə ildə kəskin olaraq dəyişmişdir. Yeni futbol qanunvericiliyinin qapıçıya ayaqla pas verməsinə qadağa qoyması, texniki tərəqqi nəticəsində həm daha tez uçan və həm da uçuşda istiqamətini kəskin dəyişən yeni tipli topların ortaya çıxması, eyni zamanda taktiki fikrin daha da inkişafi-bütün bu amillər bugünkü qapı keşikçilərinə tələbkarlığı əhəmiyyətli dərəcədə yüksəltmişdir, beləki onlar zərbə və ötürmə texnikasını təkmilləşdirməli, müdafiəyə savadlı rəhbərlik etməyi, hücuma başlarkən topu oyuna əllə və ya zərbə ilə qüsursuz daxil etməyi bacarmalıdırlar. Tədbirin sonunda Futbol oyunu ilə bağlı şeirlərdə səsləndirilə bilər. Həmin şeirlərdən bir neçəsini sizə təqdim edirik.

Xırda fışdırığa üfürər hakim,

Ən qədim musiqi dinər bəlkə də.

Top oyuna daxil olunan kimi,

Sanki yer də, göy də hərəkət edər.

Bütün dünya boyu hərlənir kürə,

Hamı uşaq-böyük düşüb dalınca.

Qapıdan qovular, qapıya girər –

Dünya bir balaca topun girinci.

Salar min azara bu girdə sovxa,
Ürəyi acıqdan partlayan olur.
Oynayan dəlidir, dəlidir baxan,
Dərdi sevinc qədər vurulan qolun.

Kiməsə şöhrətdir, kiməsə qazanc,
Kimisə qaldırar zirvəyə qədər.
Kiməsə məyusluq gətirər ancaq,
Yıxar, həmişəlik zədələyər də.

Hərlənir, fırlanır, kürə dayanmır,
Boşalmır dünyada stadionlar,
Ayaqı yer tutan körpə dadanır,
Qatılır oyuna indi qadınlar.

"Axı nə mənası bu top qovmağın", —
Deyib bu oyunu qarğıyan da var.
Oyunda bir məna axtaran oğlan,
Özünü üzərsən, başın ağrıyar!

Baxın elə bizim yer kürəsinə,

Yaranan günündən hərlənir o da.

Nə dərin bir məna bunda görürsən? —

Onu da qovan var bu Kainatda!

Dolub-boşalmada stadionlar,

Hamı oyunsevər, bir fitə bənddir.

Tanrıdan min nemət alıb dadanlar,

Nədənsə futbolu seçib bəyəndı.

Uşaq, yeniyetmə və gənclər arasında fiziki tərbiyə və idmanın təşviqi gənclər siyasətinin prioritetlərindəndir. Bu məqsədlə bir sıra idman məkanları istifadəyə verilib. Bəs əhalinin idmana marağı nə qədərdir? Aparılan tədqiqatlara əsasən deyə bilərik ki, ölkədə 15-19 yaşlı əhalinin 41,4 faizi, 20-44 yaşlı əhalinin 27,6 faizi, 45-64 yaşlı əhalinin 11,9 faizi idman edir.Mütəxəssislərin fikirincə, qeyri-aktiv həyat tərzi və fiziki hərəkətsizlik dünya üzrə sağlamlıq üçün əsas risk amillərindən biridir. Amma idmanla məşğul olduqda orqanizmdə oksigen mübadiləsi artır. Bu isə beyin-qan dövranını yaxşılaşdırır. Yarana biləcək bir çox xəstəliklərin qarşısını alır. Ölkədə sağlam həyat tərzinin təbliği məqsədilə paytaxtla yanaşı regionlarda da parkların sayı artırlır, yaşıllıq zolaqları genişləndirilir, müxtəlif yaş qrupları arasında estafet yarışları, yürüşlər təşkil edilir.

Gənclərin futbol oyunlarına olan marağı və həvəsini

nəzərə alaraq onlar üçün futbolun tarixinin yaramasında keçdiyi inkşaf yolu haqqında maraqlı məlumatlar toplamışıq. Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında keçirilən tədbirlərdə bu məlumatlardan istifadə oluna bilər. “Futbol haqqında maraqlı faktlar”, “Futbolun özəllikləri”, “Futbol haqqında bilmədiklərimiz” başlıqları atında müxtəlif tədbirlər keçirilə bilər. Bir neçə şagird  məlumatları oxumaqla səhnəcik hazırlaya bilər. Həmin məlumatları sizə təqdim edirik.

**1.**Yer kürəsinin bütün kontinentlərində, bütün xalqların mədəniyyətində futbolun elementlərini görmək mümkündür. Maya dövrünün (600-1000-ci illərində) keramik qalıqlarında belə topla olan oyunçuları görmək mümkündür. O zamanlar oyun tlaçtli adlandırılırdı. Mayalılar kauçuku emal etmə bacarığına sahib idilər. Məhs ondan top hazırlanırdı. Oyun zamanı topu başla vurmaq məsləhət görülməsədə, çiyin və baldırla vuruşlardan istifadə edilirdi. Oyunun məqsədi oyunçuların bacardıqca topu havada saxlaması və rəqib komandadın oyun sahəsinə olan üzükdən top keçirməkdən ibarət idi. 1529-cu ildə rəssam Kristof Veydis ispan ekspedisyası ilə Meksikanı səyahət edən zaman tlaçtli oyunu haqda yazırdı: “Onlar yalnız ayaqlarından istifadə etməklə oynalınan oyun oynayırlar. Oyunun predmeti isə hava ilə doldurulmuş dəri şardır.”

**2.** Futbolun dəqiq və ümumi qaydaları 1860-cı ildə İngiltərədə müəyyən olundu. Bu zaman oyunçular meydançanın hansı ölçülərinin daha optimal olduğunu və professinal toplar üçün hansı qapıların uyğunluğunu müəyyənləşdirdilər.

**3.** Futbol üzrə dünya çempianatını adətən ümumi olaraq "Mundial" adlandırırlar. Bu ispan mənşəli sözdür. Mənası "bütün dünyanı zəbt etmiş, bürümüş" deməkdir. Bu ifadə pərəstişkarlar və kommentatorlar tərəfindən 1982-ci ildə etibarən işlədilməyə və qəbul edilməyə başlanıldı. Bundan sonra kəlmə daha da genişlənmiş və nəticədə futbol üzrə dünya çempianatı bu cür adlandırılmışdır.

**4.**Futbol geyimləri 80 ildən artıqdır ki, nömrələnir. ilk dəfə rəqəmləmə 1928-ci ildə "Çelsi" ilə "Arsenal"-ın görüşündə baş vermişdir. Statistikaya uyğun olaraq london klublarının geyim nömrələri 1-dən 11-ə qədər nömrələnir. Ənənə tam olaraq 10 il sonra ümumi xarakter aldı. Bu gün isə məhs nömrələnmə oyunçuların özünü təsdiqi və dünya ulduzlarının fərqləndirilməsi üçün gərəklidir.

**5.** Bir dəfə iki şotland komandalarının görüşü zamanı qatı duman yaranmışdır. Nəticədə oyun boyu futboçular bir-birlərini axtarmağa çalışır, ayaqları altında topu belə görə bilmirdilər. Ehtiyyat oyunçular oturacağına qaçanları belə heç kim görmürdü. Nəticədə hakim oyunu dayandırdı və bu zaman meydançada eyni anda otuz oyunçunun oynadığı məlum oldu.

**6.**Oyun zamanı cərimə kimi 11 metrəliyin təyini ilk dəfə İrlandıyalı futbol eksperti Jon Penalti tərəfindən 1891-ci ildə təklif olunduğu hesab edilir. Nəticədə cərimə onun şərəfinə adlandırılmışdır.

**7.** Əslində isə, belə bir insan mövcut olmayıb. Penalti Uilyam Makkram tərəfindən təklif edilib və death penalty (ölüm cəzası) adlandırılmışdır. Bu hadisə məhs 1891-ci ilə təsadüf edir.

**8.**Sən demə, futbol meydançasının zolaqlı görünməsi heç də iki cür otun əkilməsi ilə bağlı deyil. Sadəcə otu biçən zaman müxtəlif tərəflərdən biçməyə başlayırlar. Ot cücərən zaman bu cür fərqli rənglər formalaşır.

**9.**Jimmi Teylor adlı qolkiper müasir futbol tarixinin ən bacarıqsız və qeyri-profisional futbolçusu hesab edilir. Orta hesablalara əsasən bir maç boyunca 17 top buraxmışdır. Qısa müddətli sezon zamanı onun qapsından 500-ə yaxın qol keçmişdir.

**10.** 1959-cu ildə alman meydançalarının birində iki oyun eyni vaxtda keçirilidi. Meydançada eyni anda dörd komanda göründü. Səbəb isə sadəcə menecerlərin səfi nəticədə oyunların eyni saata nəzərdə tutulması idi. İspan şəhəri olan Fuentedə yerli komanda "Qonşa" futbol komandasını qəbul edirdi. Bir müddət sonra qonaqlar 2:0 hesabda irəli çıxan zaman gözlənilmədən meydançaya öküzlər daxil olmağa başladı. Nəticədə hakimlər və oyunçular özlərini itirərək hərə bir tərəfə qaçmağa başladı. Bu tələşa tamaşaçılarda qoşuldu. Nəticədə oyun ləğv edilidi. Araşdırmalar zamanı korida oyunları üçün nəzərdə tutulmuş öküzləri uduzan komandanın pərəstişkarının meydançaya buraxdığı və bununlada böyük hesbla məğlubiyyətdən yayınmaq istədiyi məlum olmuşdur.

**11.** Dünya çempiyanatının play-off oyunları zamanı Qondurusun yığma komandasının Salvadorun yığma komandasına uduzmağı 1969-cu ildə iki ölkə arasında 6 günlük müharibəyə səbəb olmuşdur.

**12.** Futbol komandasında oyunçuların sayının 11 nəfərdən ibarət olması fikrini ilk dəfə ingilislər, daha dəqiq desək, ingiltərəli tələbələr irəli sürüblər.

**13.** Əvvəllər futbol oyunu bir kütləvilik təşkil edirdi, hətta, futbol oyunu kütləvi bir döyüş meydanını xatırladırdı. Məsələn: 1570-ci ildə sənətkarların təşkil etdikləri kütləvi futbol oyunu çoxlu yaralı və bir neçə nəfərin ölümü ilə nəticələnib. İdmana yaraşmayan bu cür xoşagəlməz hallar çoxlarının hiddətinə səbəb olurdu. Kral VIII Henrix isə 1542-ci ildə belə bir vəhşi idmanın oynanılmasını yasaq edib və bu qadağaya əməl etməyənləri həbsxana gözləyirdi. Kral VIII Henrix sərəncamında belə yazıb: "Bu cür vəhşi, qanlı və düşmənçilik yaradan oyunu bir daha heç kəs oynamayacaq!". Bu qadağa 1842-ciilədək qüvvədə olub. 1842-ci ildə isə formal olaraq qadağa ləğv edilib. Köhnəlmiş kral qadağasının ləğvindən bir müddət sonra Kembric Universitetinin tələbələri 1848-ci ildə futbol oyununun sivil qaydalara uyğun olan nizamnaməsini tərtib ediblər. Bu qaydalar da, demək olar ki, humanizmə tam cavab vermirdi. Çünki bu qaydalara görə, rəqib oyunçuya badalaq vurmaq, əllə tutub saxlamaq, ayağına təpiklə vurmaq yasaq deyildi.

**14.** Futbolun yaranma tarixi 1863-cü il hesab olunur. Çünki həmin ildə ilk Futbol Assosiasiyası yaradılıb və indiki qaydalara uyğun gələn qaydalar tətbiq olunub. Bu qaydalar içərisində Kembric tələbələrindən qalan bircə qayda var idi, o da — oyunçuların sayının 11 nəfər olması. Bəs Kembricli tələbələr nə üçün - "komandada oyunçuların sayı 11 nəfər olsun "- qaydasını qoyublar? O zamanlar Kembric Universitetinin yataqxanasında otaqlar 11 çarpayılıq idi. Yəni hər otaqda 11 tələbə qalırdı. Universitetdə isə tələbələr otaqlar arasında futbol yarışması keçirirdilər. Necə deyərlər: - "otaq otağa qarşı, yəni - 11 nəfər 11 nəfərə qarşı". Yeri gəlmişkən qeyd etmək lazımdır ki, "Kembric Yunayted"("Cambridge United") futbol klubu İngiltərənin ən

qocaman klublarındandır və bu klub 1912-ci ildə yaradılıb, 1949–cu ildən peşəkar status alıb. Komandada oyunçuların sayının 11 olması haqda başqa bir tarixçə də mövcuddur. Belə ki, deyilənlərə görə, "komandada oyunçuların sayı 11 olsun!" – qərarını ilk dəfə "Şeffeld" futbol klubunun oyunçuları veriblər. "Şeffeld" futbol klubu özünün qış məşqlərini Kriket klubunda edirdi və onlar bu məşqləri kriket klubunun üzvləri ilə keçirirdilər. Kriket komandasının da üzvləri 11 nəfərdən ibarət olurdu. İndiki qaydalar belədir: Oyun iki komanda arasında keçirilir. Hər komandada oyunçuların sayı qapıçı da daxil olmaqla 11-dən artıq olmamalıdır. Komandaların hər hansı birində meydançadakı oyunçuların sayı 7-dən az olarsa, oyun başlana bilməz və s.

**15.** Futbol topunun adətən qara rəngdə olan beş guşəli və altı guşəli fiqurlarla bəzədilmiş forması, 1962-ci ildə NASA-nın kosmosda olan Telestar peykinin bənzəri olaraq düzəldildi.

**16.** Futbol hakimləri illər boyu əl dəsmalları gəzdirərək oyunu idarə etdilər. Fit ilk dəfə 1878-ci ildə istifadə edilmişdir.

**17.**Futbol qapısının 1882-ci ilə qədər üst dirəyi yox idi. Top iki dirəyin arasından keçdiyindən, nə qədər yüksək keçməsinə baxmayaraq qol hesab edilirdi.

**18.** Qırmızı və sarı vərəqə tarixi əslində tamamilə yenidir. 1970-ci illərə qədər hakimlər oyundan futbolçu çıxartdıqları zaman qərarlarını şifahi şəkildə çatdırırdılar.

**19.**Müasir futbolun tarixi İngiltərədən başlasa da, futbolun primitiv variantları ilk dəfə 2200 il əvvəl Çində oynanılmışdı. Orta əsrlərdə futbolda rəqibi yumruqlamaq, təpikləmək və dişləmək sərbəst idi.

**20.** Uruqvay və Braziliya arasındakı Marakana Stadionunda oynanan 1950 Dünya Kuboku Finalı 199 min 854 tamaşaçı ilə hər zaman möhtəşəm bir tribuna rekordunu göstərməyə davam edir.

**21.** Qadınlararası Dünya Futbol Kuboku ilk dəfə 1991-ci ildə Çində oynanıldı və ABŞ çempion oldu.

**22.** Dünya Kuboku tarixində yarışlara qatılmağı bacaran ən kiçik ölkə 2018-ci ildən İslandiya oldu.

**23.** Sportivo Ameliano və Heneral Kaballero arasındakı matçda Paraqvay Liqa komandaları 20 oyunçuya qırmızı vərəqə göstərdilər və bir matçda ən çox qırmızı vərəqə ilə Ginnesin Rekordlar Kitabına daxil edildi.

**24.** 1998-ci ildə İngilis hakim Martin Silvester futbolçunu yumruqladığı üçün özünə qırmızı vərəqə göstərdi.

**25.** 1978-ci ildə oyun başlamazdan əvvəl soyunma otağında marixuana qəbul etdiyi üçün tanzaniyalı hakim polis tərəfindən tutuldu.

**26.** Liberiya milli komanda futbolçularının səyahət xərclərini ödəyə bilmədiyi üçün 1996-cı il Afrika kubokunda iştirak edə bilmədi. Məşhur Liberiyalı futbolçu Corc Veya bütün forma və səyahət xərclərini cibindən götürərək komandasını turnirə apardı.

**27.** Dünya Kuboku, təxminən 5,9 kiloqram ağırlığında 18 karat qızıldan ibarətdir.

**28.** Hindistan, oyunçularına ayaqyalın oynamağa icazə verilmədikdə, 1950 Dünya Kubokunda iştirakdan imtina etdi.

**29.**"Arsenal" futbol komandası "The Arsenal" adlanırdı. Bununla birlikdə klubların adı əlifba sıralamasında ilk sırada iştirak etmək üçün "Arsenal" olaraq dəyişdirildi.

**30.** 1998-ci ildə ikinci liqanın komandası "Jiyul Petroşani"də oynayan Rumıniyalı yarımmüdafiəçi İon Radu, "Rımniku Vılça" komandasına 500 kilo ət qarşılığında satıldı.

**31.** Tarixdəki ən uzun çəkən "Linkoln Kiti" və "Koventri Kiti" oyunudur. Təxirə salınması ilə əlaqəli ən maraqlı hadisələrdən biri İngiltərədə 1962/1963 mövsümündə baş verdi. 5 yanvar 1963-cü ildə başlayan "Linkoln Kiti" - "Koventri Kiti" oyunu, güclü qar səbəbindən hakim tərəfindən təxirə salındı. Sonrakı günlərdə daha 15 dəfə başlayan və təkrarən təxirə salınan görüşün qalan hissəsi qarşlaşmanın başlamasından 66 gün sonra 6 mart tarixində oynanıldı və "Koventri Kiti" futbol tarixindəki bu ən uzun oyunu 6-1 hesabı ilə qazandı.

**32.** Aşli Uard 1998-ci ilin noyabrında "Sunderland"a qarşı matçın cəmi beş dəqiqəsində bir qol vurdu, bir penaltini qaçırdı və qırmızı vərəqə gördükdən sonra oyundan kənarda qaldı.

**33.** 1986-cı ildə Finlandiyanın əfsanəvi futbolçusu Pentti bir oyunda 5 qol vurdu.

**34.** 2002-ci ildə Madaqaskar komandası "Stade Olimpique L Emirn" çempion "AS Adema"a qarşı oyunda öz qapılarına 149 qol vurdu. Bu maraqlı cəhdin səbəbi əvvəlki oyunda hakimin qərarlarına etiraz etmək idi.

## Futbol haqqında maraqlı filimlər



Azarkeş tammetrajlı bədii televiziya filmi rejissor Cavid Təvəkkül tərəfindən 2008-ci ildə ekranlaşdırılmışdır. İctimai televiziyada istehsal edilmişdir. Film Argentina futbool komandasının fanatik azarkeşinin başına gələn hadisələrdən bəhs edir. Əsas rolları Əjdər Həmidov, Səidə Quliyeva və Kəmalə Hüseynova ifa edirlər.




Qələbəyə qaçış (Escape To Victory) – 1981 Maykl Kain, Silvestr Stallone kimi məşhur aktyorlar, həmçinin Pele, Bobbi Mur və Ardiles kimi futbol əfsanələrini izlədiyimiz filmdə İkinci Dünya Müharibəsi əsnasında ələ keçirilən bir qrup müttəfiq əsgərin işğal güclərindən qaçmaq planlarından söhbət gedirdi. Nasist zabitləri, təbliğat məqsədi ilə məhbuslardan ibarət komandaya qarşı bir matç təşkil edirlər, lakin qarşılarında heç gözləmədikləri bir komandanı görürlər. Ardilesin matç səhnəsində etdiyi göyqurşağı hərəkəti də filmi futbol sevərlər üçün fərqli bir nöqtəyə gətirir.




Qol kralı (Gol kralı) – 1981 Əziz Nesinin eyni adlı romanı əsasında çəkilib. Baş rolda Kemal Sunaldır. Varlı bir ailənin eynəkli, ziyalı oğlu sevdiyi qızın futbol sevgisinə görə futbolçu olmağa qərar verir...




Kubok (The Cup) -1999

Bircə məqsədləri var: 1998-ci ilin Dünya Çempionatını izləmək. Məhz bu məqsədlə monastrlarına televizor almaq istəyən iki tibetli gəncin hekayəsi göstərilir...




Öldürücü futbol (Shaolin Soccer) – 2001

Kunq Fu döyüş sənəti ilə futbolun birləşdiyi an... Ortaya qəribə bir mənzərə çıxacaq. Futbol oyunları döyüş səhnələrinə bənzəyəcək...




Qələbənin qiyməti (A Shot at Glory) - 2002

Şotlandiyadakı bir qəsəbənin komandası... Futbolun gözəlliyini, onun bir xalqın ruhunu ifadə etməsini bizə göstərən bir film...




Bekhem kimi oyna (Bend It Like Beckham) - 2002

İngiltərədə yaşayan hind qızı Jess ailəsindən xəbərsiz qadınlar komandasında oynayır. Jess həm futbola uyğunlaşmalı, həm də ailəsindən bunu gizli saxlamalıdır.

Futbol, futbol... (film, 1979) qısametrajlı sənədli film

Rejissor, ssenari müəllifi Teymur Bəkirzadə Film "Dəri Top" Ümumittifaq klubunun mükafatı uğrunda məktəblilərin futbol yarışına həsr olunmuşdur.Yarışırlar: Qubanın "Şahdağ" komandası və İrəvanın "Lusaşox" komandası





Top həm düşər, həm qalxar — Rejissor Arzu Urşanın filmi.Azərbaycan futbolunun 100 il ərzində keçdiyi inkişaf göstərilir. Sənədli filmin təqdimatı 20 dekabr 2011-ci ildə Bakıdakı Beynəlxalq Muğam Mərkəzində keçirilmişdir. 2011-ci il sentyabrda Rusiyanın Lipetsk şəhərində keçirilmiş "Atlant" VIII Beynəlxalq İdman Filmləri Festivalı "Olimpiya İdeallarına Sədaqət" nominasiyasında birinci mükafata layiq görülüb. 2011-ci il noyabrda İtaliyanın Milan şəhərində keçirilmiş XXIX Beynəlxalq İdman Kino və Televiziya Kino Festivalı "Kino və televiziya — Böyük çempionlar" nominasiyasında "Ən yaxşı film" mükafatına layiq görülüb.2012-ci il mayda Türkiyənin İstanbul şəhərində keçirilmiş II Beynəlxalq İdman Filmləri Festivalı"İdman klubu haqqında ən yaxşı film" nominasiyasının qalibi olub.



Hakim mərkəzi göstərir (film, 2009) Filmin Rejissoru Vasif Məmmədzadə Ssenari müəllifi isə Eldar İsgəndərzadədir. Film ilk Azərbaycanlı FİFA futbol referesi Tofiq Bəhramova həsr olunub. Tofiq Bəhramovun adı zirvədə dayanan mayak kimi həmişə ucalıqlara aparan yolu nişan verir.... Azərbaycan

hakimi Tofiq Bəhrəmov haqqında çəkilən "Hakim mərkəzi göstərir" adlı sənədli televiziya filminin mətnindən götürülüb. Yenicə yaradılmış İdman Azərbaycan telekanalında ilk filmin olan bu ekran əsəri üç ay ərzində tamaşaçıların xahişi ilə 8 dəfə efirə verilib. Respublika stadionu (film, 1951) qısametrajlı sənədli film. Filmin Rejissoru Mikayıl Mikayılov, Ssenari müəllifi isə Mikayıl Mikayılovdur. Film respublika stadionunun təntənəli açılışına həsr olunmuşdur.



Qol (Goal) – 2005Meksikalı Santiyaqonun bir tək xəyalı var: futbolçu olmaq. Ancaq bu elə də çətin olmayacaq. Los Angelesin balaca bir məhəlləsində futbol oynayan gəncinsonradanİngiltərənin Premyer liqasında oynamasından bəhs edən gözəl bir film...

Vill (Will) - 2011




İllər sonra bir araya gəlmiş “Liverpul” komandasının iki azarkeşi: ata və oğul. “Liverpul”un Çempionlar liqasının final oyununa baxacaqlar. Lakin tale onları yenə ayırır: atası qəfil ölür. Vill atası üçün o oyuna getməyi qərara alır.

Futbol bütün dünyada ən populyar idman növü sayılır. Futbol günü idmançıları və

idmanın bu növünün sadiq azarkeşlərini birləşdirən bayramdır. 10 dekabr - Ümumdünya futbol günü ilə əlaqədar olaraq, mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxanlarında nağıl saatları təşkil oluna bilər. Oxucuların istəyini nəzərə alaraq onların sevimli futboloçusu haqqında nağıllar səsləndirilə bilər. Nağıl saatları "Futbolçunun uğuru", "Qolun gücü"adı altında təşkil oluna bilər.

Ümumdünya futbol ünü ilə əlaqədar olaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbir nümunəsini sizə təqdim edirik. Nağıl otağında növbəti nağıl saatı təşkil olundu. Kitabxana əməkdaşları kiçik yaşlı oxucularla "Futbol ulduzları-Ronaldo " kitabını müzakirə etdilər. Əvvəlcə uşaqlar kitabxananın əməkdaşları tərəfindən hazırlanmış çarxlı slaydı izlədilər. Sonra kitabxanaçı futbolun tarixi haqqında maraqlı, qısa məlumat verdi.

**Metodist:** Bu kitab ilk dəfə 2011-ci ildə Türkiyənin "Çizmeli Kedi nəşriyyatı tərəfindən "Ronaldo" adı ilə nəşr olunub. Futbol ulduzunun uşaqlığından başlayaraq karyerasınadək hayat hekayəsini sadə dildə nəql edən kitab "Çizmeli Kedi nəşriyyatının orijinalı əsasında TEAS Press Naşriyyat evində tərcümə edilərək çapa hazırlanıb. Kitabın Azərbaycan dilinə tərcüməsi və nəşri hüququ TEAS Press Nəşriyyat evinə məxsusdur.

TEAS Press Nəşriyyat evi "3 alma" əmtəə nişanı ilə azyaşlı uşaqlar, yeniyetmə və gənclər, eləcə də müallim və valideynlər üçün bədii və elmi-kütləvi kitablar nəşr edir.

**II Metodist:** Qızıl buts" mükafatına layiq görülmüş küçə uşağı... Səfalətin hökm sürdüyü bir məhəllədə yeməkxanalarda artıq qalan yeməklərlə qarnını doyuran insanlar... Belə bir mühitdə böyüyən birinin, hələ 30 yaşına çatmamış futbol ulduzu olacağı kimin ağlına gələrdi? Həm də dünyanın ən çox qazanan, ən çox mükafat alan, on böyük futbol klublarında oynayan bir futbol ulduzu... Kriştiano Ronaldonun hayatı bir nümunədir: bir şeyi çox istəyirsənsə, bu istək uğrunda əlindən gələni əsirgəmirsənsə, qazanılması mümkün olmayan heç bir uğur yoxdur. Küçə uşağı Ronaldonun futbol ulduzu Ronaldoya qədər uzanan həyat hekayəsini oxuyarkən həm əylənəcək, həm üzüləcək, həm də uğurların əsla təsadüf olmadığını öyrənəcəksiniz. Kitabdan qısa bir hekayəni sizə təqdim edirik.

Ronaldaonun 14 yaşı olmasına baxmayaraq, komandada onunla ulduz kimi davranırdılar. Bundan əlavə, xərcliyi də xeyli artmışdı. Çox yaxşı tennis oynayırdı. Bütün bunların səbəbi artıq nizam-intizama əməl etməsi idi. Anası üç ayda bir dəfə yanına gəlir, 15-20 gün onunla qalır, oğlunun bütün ehtiyaclarını həll etdikdən sonra yenidən Funşala geri qayıdırdı.Məktəbdəki dərsləri çıxmaq şərtilə, gördüyü hər işdə birinci olmaq istəyən Ronaldo boş vaxt larını yenə stolüstü tennis oyna maqla keçirirdi. Bir dəfə tennis oynayarkən, akademiyanın tennis məşqçisinin diqqətini cəlb etdi. Çünki rəqibinə göz açmağa imkan vermir, özünü tamamilə oyuna həsr edirdi. Tennis məşqçisi Ronaldonun çox yaxşı fut bolçu olduğunu bilirdi, amma bu qədər yaxşı tennis oynadığından xəbərsiz idi. Üzünü gəncə tutub dedi: Heç də pis deyil, Ronaldo. Stolüstü tennis komandamıza qoşulmaq

istəmirsən?

Ronaldo məşqçinin bu təklifi qarşısında duruxub qaldı. O, dünyanın ən yaxşı futbolçu larından biri olmaq üçün burada idi, tennisçi olmaq barədə düşünmürdü. Gülümsəyərək:

- Təşəkkür edirəm... Ancaq mən buraya futbol oynamaq üçün gəlmişəm, deyə cavab verdi.

Nağılı oxuduqdan sonra uşaqlar buradakı hadisələr və qəhrəmanla bağlı müzakirələrdə iştirak etdilər. Futbolun sirlərinə daha da yaxından bələd oldular.

Qeyd etmək lazımdır ki, hər həftənin bazar günləri kitabxananın Nağıl otağında Nağıl saatının keçirilməsində başlıca məqsəd həm də kiçikyaşlı oxuculara tərbiyəvi təsir göstərməkdən ibarətdir. Belə ki, bədii əsərlərdəki obrazlar, psixoloji hallar, hadisələrin inkişafı uşaqların dünyagörüşünü genişləndirir.

Yaxşı uşaq komandasının olması və müntəzəm oynamaq uşaqlara bacarıqlarını inkişaf etdirməyə və komandaları ilə uğurla işləməyə kömək edəcək. Onlar birlikdə kollektiv birlik olaraq necə ən təsirli ola biləcəklərini öyrənəcəklər. Komandanın bir hissəsi olmaq həm də uşaqlara sahiblənmə duyğusu verəcək və onları başqaları haqqında düşünməyə təşviq edəcək.

# Kitab sərgisi
















Müntəzəm olaraq valideynlərin uşaqları ilə vaxt keçirməsi daha dərin ünsiyyət bacarıqlarının və fiziki potensialın inkişafına təkan verir. Uşaqlarını futbola qoyan valideynlərin böyük əksəriyyəti futbol məşqinin uşaqlarının fiziki, emosional və sosial rifahı üçün faydalı olduğu ilə razılaşır. Bəs onların hamısı uşaqlarının bir futbolçu kimi ambisiyalarının nə olduğunu bilirlərmi? Praktikanı dəstəkləməsinə baxmayaraq, çoxları bunu bilmir. İstənilən halda, uşağın ambisiyalarının nə olduğunu bilmək onun uğurlu karyera qurmasında ilk addım olmalıdır. Çünki yalnız bundan sonra onun yalnız idman məşqində deyil, məqsədlərində dəstəklənməsi üçün lazım olan bütün addımlar atıla bilər. Demək olar ki, bütün gənc oyunçular Avropanın ən yaxşı klubuna çatmaq, Çempionlar Liqasında oynamaq və çoxlu titullar əldə etmək arzusundadırlar, amma reallıq budur ki, dünyada yalnız bir neçə oyunçu bu səviyyəyə çatmaq qabiliyyətinə malikdir. Bu məsələdə uşağın fiziki xüsusiyyətləri və məşqi ilə birlikdə valideyni tərəfindən mental və psixoloji baxımdan dəstəklənməsi vacib bir akt olmalıdır.

.https://m.futbolpress.az/oxu.php?id=93530

**F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**"Neftçi"** futbol **klubunun** "Birlik Kuboku"nu qazanması Azərbaycanda idmanın çox yüksək səviyyədə olmasını göstərir : Azərbaycan Prezidenti İ.Əliyev "Neftçi" f/k-nun rəhbərlərini və üzvlərini qəbul etmişdir // Azərbaycan. - 2006. - 25 yanvar. - S.2-3.

"Xəzər - Lənkaran" ın qələbəsi Azərbaycanın bölgələrində də idmanın sürətlə inkişaf etdiyini göstərir : Azərbaycan Prezidenti İlham Əliyev " Xəzər - Lənkaran" **futbol** klubunun üzvlərini qəbul etmişdir // Xalq qəzeti. - 2008. - 16 fevral. - S. 1-2.

**2020-ci ildə** futbol üzrə Avropa çempionatının keçirilməsi üçün Bakı şəhərinin namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (22 may 2013-cü il) // Azərbaycan. - 2013. - 23 may. - № 111. - S. 2.

Almaniya mətbuatı "Qarabağ" **futbol** klubunun uğurunu geniş işıqlandırıb // Azərbaycan. - 2017. - 27 avqust. - № 187. - S. 6.

Avro – 2020-nin dörd oyununa ev sahibliyi edəcək Bakının loqosu təqdim olunub // Respublika. - 2016. - 2 oktyabr. - № 216. - S. 4.

Azərbaycan Prezidenti İlham Əliyev "Bakı" **futbol** klubunun yeni təlim-məşq bazasının istifadəyə verilməsi mərasimində iştirak etmişdir // Azərbaycan. - 2011. - 9 sentyabr. - № 197. - S. 1-2.

Azərbaycan Prezidenti İlham Əliyev "Qarabağ" **futbol** klubunun üzvlərini qəbul edib // Azərbaycan. - 2014. - 18 dekabr. - № 277. - S. 1-2.

**Azərbaycanda ilk** futbol akademiyası açıldı // Azərbaycan. - 2009. - 25 fevral. - S. 12.

**Azərbaycanın "Qarabağ"** futbol komandası tarix yazır // Respublika. - 2017. - 30 avqust. - № 188. - S. 2.

**Bağırov T.** Qarabağ Avropanı fəth etdi // İki sahil. - 2017. - 25 avqust. - № 153. - S. 16.

**Bakıda** futbol **üzrə** FİFA U-17 qadınlararası dünya çempionatının təntənəli açılış mərasimi keçirilmişdir : Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir // Azərbaycan. - 2012. - 23 sentyabr. - № 213. - S. 1.

Bakıda ilk Beynəlxalq **futbol** könüllülüyü forumunun açılış mərasimi olmuşdur // İki sahil. - 2014. - 20 may. - № 87. - S. 12.

**Bayramov O.** "Qarabağ"ın layiqli qələbəsi : Ağdamın Qarabağ futbol klubunun Norveçdə qələbəsi // Xalq qəzeti. - 2009. - 25 iyul. - S. 8.

**Bayramov O.** Azərbaycan futbolunun ən böyük qələbələri hələ irəlidədir : "Neftçi" futbol komandasının qələbəsi haqda // Xalq qəzeti. - 2006. - 29 yanvar. - S.4.

**Bayramov O.** Bütün Azərbaycanın ürəyindən olan qələbə : UEFA Çempionlar liqası turnirinin üçüncü mərhələsinə ilk vəsiqəni " Bakı " qazandı // Xalq qəzeti. - 2009. - 23 iyul. - S. 8.

**Bayramov O.** Dünyanın futbol həyəcanları başlanır // Xalq qəzeti. - 2006. - 9 iyun. - S.8.

**Cavadov O.** Anatoli Banişevski - 65 : Əfsanəvi futbolçu haqqında // Təhsil problemləri. - 2011. - 16-23 mart. - № 21/22. - S. 3.

**Cəfərov E.** "Qarabağı"ın zəfər gecəsi : Ağdam təmsilçisi ardıcıl 4-cü dəfə UEFA Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazandı // Azərbaycan. - 2018. - 31 avqust. - № 193. - S. 8.

**Cəfərov E.** 88 illik tarixə malik möhtəşəm futbol bayramı : XXI Dünya çempionatı // Azərbaycan. - 2018. - 12 iyun. - № 131. - S. 11.

**Cəfərov E**. Çempionluğa bir oyun qaldı : Futbol üzrə milli komandamız İslamiadada finala yüksəldi // Azərbaycan. - 2017. - 19 may. - № 106. - S. 6.

**Cəfərov E.** Ən böyük futbol bayramı : XX Dünya çempionatı // Azərbaycan. - 2014. - 10 iyun. - № 121. - S. 6.

**Cəfərov E.** Fransadan Fransayadək... : Futbol üzrə XV Avropa Çempionatı // Azərbaycan. - 2016. - 8 iyun. - № 122. - S. 6.

**Cəfərov E**. Futbolçularımızın zəfər gecəsi : Millimiz Səudiyyə Ərəbistanı yığmasına qalib gələrək qrup lideri oldu // Azərbaycan. - 2017. - 12 may. - № 100. - S. 4.

**Cəfərov E.** Möhtəşəm sonluq : Futbol üzrə milli komandamız "Bakı-2017"də tarix yazdı // Azərbaycan. - 2017. - 23 may. - № 109. - S. 7.

**Cəfərov E.** Qarabağın Kopenhagen zəfəri : Ağdam klubu tarixdə ilk dəfə Azərbaycanı Çempionlar Liqasının qrup mərhələsində təmsil edəcək // Azərbaycan. - 2017. - 25 avqust. - № 185. - S. 8.

**Cəfərov R.** Azərbaycan futbolu tərəqqi mərhələsindədir : "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı" və AFFA-nın məqsədyönlü fəaliyyəti haqqında // Azərbaycan. - 2005. - 30 dekabr. - S.5.
Dünya çempionatı Bakıda : FİFA U-17 qadınlararası dünya çempionatı // Sportsman. - 2012. - № 67. - S. 59-60.

Futbol **millimizdə çempionluq** // Palitra. - 2017. - 23 may. - № 90. - S. 14.

Futbol **üzrə Azərbaycan** millisi IV İslam Həmrəyliyi Oyunlarının çempionu olub // İki sahil. - 2017. - 23 may. - № 90. - S. 10.

**Günay.** Futbolun gülməli qanunları // Planet. - 2007. - 22 may. - S.18.

**Hilaloğlu R.** "Neftçi" Birlik kubokunu qazanmaq əzmindədir : Bakının "Neftçi" komandası Birlik kuboku yarışlarında iştirak etmək üçün Moskvaya yola düşür // Azərbaycan. - 2006. - 12 yanvar. - S.1.

**İdrisoğlu F.** Ulu öndərin 85 illiyinə həsr olunmuş futbol çempionatı : Heydər Əliyev - 85 // Azərbaycan müəllimi. - 2008. - 25 aprel. - S. 6.

**İslamiadanın** futbol **yarışları** başladı // Azərbaycan. - 2017. - 9 may. - № 98. - S. 13.

Kim sevirsə idmanı... : **Futbol** // Göy qurşağı. - 2006. - №1(6). - S.29.

**Qabiloğlu M.** Futbol üzrə dünya çempionatı: kim daha çox qazanır? // Xalq qəzeti. - 2010. - 30 iyun. - N 137. - S. 6.

Qarabağ "Çelsi", "Atletiko" və "Roma" klubları ilə eyni qrupda yer alıb // İki sahil. - 2017. - 25 avqust. - № 153. - S. 16.

**Qarabağ** futbol **klubunun** UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin sərəncamı (24 avqust 2017-ci il) // Azərbaycan. - 2017. - 25 avqust. - № 185. - S. 1.

Millimizdən ilk qızıl : **futbol** // Sportsman. - 2017. - № 104. - S. 20-21.

**Mövsümzadə R.** "Xəzər Lənkəran" futbol klubunun tarixi və inkişaf perspektivləri // Sportsman. - 2014. - № 82. - S. 36-39.

**Ölkəmizin** futbol **tarixinin** yeni səhifəsi : Prezident İlham Əliyev: "Bu, dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsidir. Biz döyüş meydanlarında da qələbələr qazanırıq" : Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın "Qarabağ" **futbol** klubunun heyətini qəbul edib // Azərbaycan. - 2017. - 25 avqust. - № 185. - S. 1-2.

**Rasim M.** Futbol üzrə Avropa çempionatı // Sportsman. - 2018. - № 114. - S. 38-39.

**Rəna**. Futbol tarixinə nəzər // Şəkər villası. - 2006. - 23 may. - S.11.

**Rza K.** Azərbaycan futbolu ötən il // Sportsman. - 2012. - №61. - S. 29-31.

**Rza K.** Fəxrəddin Qayıbov: Məqsəq güclü komanda yaratmaqdır : Futbol // Sportsman. - 2013. - № 70. - S. 32-35.

**Rza K.** Milli komanda... və 96-cı dəqiqə : Futbol // Sportsman. - 2012. - № 69. - S. 42-43.

**Rza K.** Ötən ilə nəzər : Futbol // Sportsman. - 2013. - № 70. - S. 24-26.

**Rzayev K.** Jak Roqo : "Azərbaycan İdmançıları Pekində daha yaxşı nəticələr əldə edə bilərlər" // Sportsman. - 2008. - № 2. - S. 8-10.

**Tağıyev İ.** Futbol tariximizin böyük adamı - Şövkət Orduxanov // 525-ci qəzet. - 2019. - 6 dekabr. - № 160. - S. 12.

# Diqqət top qapıdadır...

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ülkər Cabarova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**